# Qiyamət günü Allah yanında insanların ən şiddətli əzab olunanları, Allahın yaratmasına bənzəməyə çalışanlardır

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) rəvayət edilir ki, o, dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənim yanıma daxil oldu və mən səhvən üzərində şəkillər olan pərdə ilə şkafın üstünü örtmüşdüm. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bunu görəndə pərdəni dartıb çəkdi, üzünün rəngi dəyişdi və dedi: “Ey Aişə, Qiyamət günü Allah yanında insanların ən şiddətli əzab olunanları, Allahın yaratmasına bənzəməyə çalışanlardır”. Aişə dedi: “Biz onu kəsdik və ondan bir və ya iki yastıq düzəltdik".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) evinə, Aişənin (Allah ondan razı olsun) yanına girdikdə gördü ki, o, əşyaların saxlandığı kiçik şkafın üzərini canlıların şəkilləri olan parça ilə örtüb. Sonra Allah üçün qəzəbdən onun üzünün rəngi dəyişdi və parçanı çıxarıb dedi: Qiyamət günü əzabı ən şiddətli olacaq insanlar, çəkdikləri şəkillər ilə Allahın yaratmağına bənzər işlər görənlərdir. Aişə dedi: "Biz də ondan bir və ya iki yastıq düzəltdik.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee